

“Avropa Olimpiya Komit si uzun ill r Avropa qit , multi-idman oyunları keçirm yi arzu edib. Asiya v dig r regional Oyunların olmasına baxmayaraq, Avropa Oyunları keçirilm yib v bu, bir q d r dal tsiz idi”.

Bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov "The Business year" jurnalına müsahibəsində deyib.

Nazir əmin olduğunu bildirib ki, Bakıda keçiriləcək I Avropa Oyunları qitə idmanı tarixində yeni səhifə açacaq və əməkdaşlıq üçün yeni perspektivlər və imkanlar yaradacaq.

Onun sözlərinə əsasən, idman mədəniyyətlərin və regionların yaxınlaşmasında, sülh və tolerantlığın möhkəmləndirilməsinə unikal rol oynayır.